T Ə S V İ R İ   S Ə N Ə T

**UOT 7.01;7:001.8**

**Elşad Əliyev**
**AMEA Memarlıq və İncəsənət İnstitutu**
**AZ 1143, Bakı, H.Cavid pr., 31**

**Mehriban Novruzova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**AZ 1065, Bakı, İnşaatçılar pr. 39**
**E-mail: m-novruzova@mail.ru**

# I ŞAH İSMAYILIN PORTRET CİZGİLƏRİNİN İDENTİFİKASİYASI

**Xülasə:** Azərbaycan Səfəvilər dövlətinin qurucusu I Şah İsmayılın günümüzə qədər gəlib çıxmış bir neçə portreti məlum olsa da, bunların əsl müəllifi, nə vaxt və hansı şəraitdə çəkildiyi dəqiq bilinmir. Bu tədqiqatların əsas məqsədi I Şah İsmayılın mövcud portretlərinin sənətşünaslıq baxımından identifikasiya edilməsidir. Bu tədqiqatlar multidissiplinar xarakter daşıyır. Orta əsr portretlərinin identifikasiyası üçün ilk dəfə olaraq iki fərqli kriteriyə görə təsnifat aparılmışdır: birincisi xarici əlamətlərə (geyim, bəzək aksessuarları, papaq və s.) görə və ikincisi antropometrik əlamətlər. I Şah İsmayıl obrazı Yavuz Sultan Səlimin portretləri ilə komporativ təhlil edilmiş, onların fərqli xüsusiyyətləri aşkara çıxarılmışdır.

**Açar sözlər:** Səfəvilər dövləti, Qızılbaşlıq təriqəti, I Şah İsmayıl, portret, komporativ təhlil.

"Azərbaycan xalqının ... incəsənəti və mədəniyyətinin ... inkişaf mərhələlərinin hərtərəfli öyrənilməsi"nin və "Azərbaycançılıq ideologiyasının elmi-nəzəri əsaslarının tədqiqi"nin "Elm sahəsində dövlət siyasətinin əsas prioritetləri"nə tam uyğun olması və aktuallığı "Elm haqqında Azərbaycan Respublikasının Qanunu"nda təsbit edilmişdir [1]. Azərbaycan xalqının Səfəvilər dövrünə aid incəsənət əsərləri hazırda dünya muzeylərində İran incəsənət nümunələri (Persian Art) kimi təqdim olunur. Bu stereotipin aradan

qaldırılması ciddi tədqiqatların aparılmasını aktuallaşdırır [2].

2003-cü ildən indiyədək sistemli şəkildə apardığımız tədqiqatlar göstərmişdir ki, Azərbaycan Səfəvilər dövlətinin qurucusu Şah İsmayılın günümüzə qədər gəlib çıxmış birneçə portreti mövcuddur. Lakin təəssüf olsun ki, bunların heç birinin əsl müəllifi, nə vaxt və hansı şəraitdə çəkildiyi dəqiq bilinmir [3-6]. Bu problemin həlli ilk növbədə I Şah İsmayılın portretlərindəki cizgilərin elmi cəhətdən əsaslandırılmış identifikasiyası sayəsində mümkün ola bilər.

Orta əsrlərdə çəkilmiş portretin identifikasiyası, portret üzərində olan konkret cizgilər ilə portretdə təsvir olunmuş şəxsiyyət haqqında tarixi mənbələrdə olan məlumatların uyğunluq dərəcəsinin müəyyən edilməsini nəzərdə tutur. Burada iki mühümməqam vardır:

Birincisi, əlavə xarici əlamətlərdir ki, bunlar əsasən geyim, zinət əşyaları, bəzəklər, papaq, müxtəlif aksessuarlar və s. ibarətdir.

İkincisi, anatomik əlamətlərdir ki, bunlar əsasən insanın cinsindən, antropoloji quruluşundan, bədən quruluşundan, yaşından, saçının rəngindən, burnunun, gözlərinin və qulaq seyvanının formasından və s., ibarətdir.

Təqdim etdiyimiz bu antropometrik identifikasiya sistemi XIX əsrin sonları XX əsrin əvvəllərində yaşamış fransız hüquqşünası Alfons Bertilyon (1853-1914) tərəfindən yaradılmış [7], sonralar R.-A.Reyss tərəfindən təkmilləşdirilmişdir [8].

Şah İsmayılın şəxsiyyəti ilə əlaqədar olaraq, yuxarıda qeyd etdiyimiz hər iki istiqamətdə, yəni antropometrik, həm də xarici əlamətlər sistemi haqqında tarixi mənbələrin, sənədlərin, miniatür rəsmlərin və s., axtarışını aparmaq məsələsi aktuallaşdı.

**Şah İsmayılın xarici əlamətləri haqqında məlumatlar.**

Şah İsmayılın hakimiyyətə gəlməsi ilə Azərbaycanda qızılbaşlıq hərəkatı geniş yayılmağa başladı. Tarixi mənbələrdə bu təriqət haqqında müxtəlif fikirlər mövcuddur. Bəzi ehtimallara görə Həzrəti Əli müharibələrdə başında qırmızı tac ilə iştirak etmişdir. Bu səbəbdən də qızılbaşlar bu geyimdən istifadə edirmişlər [9]. Başqa bir ehtimala görə Şah İsmayıl II Bəyazid ilə müqavilə bağlamış və öz əsgərlərini Anadoludan Suriyaya keçirmişdir. Bu əsgərlərin başındaincə materialdan hazırlanmış qızmızı təkkələr varmış. S.Nağıyevin təbirincə, qızılbaşlar 12 şiə imamın şərəfinə 12 qırmızı zolaqlı çalma bağladıqlarına görə belə adlanırdılar [10].

Orta Asiya ölkələrindən olan sənətşünaslar da bu fikri dəstəkləyirlər [11, 12]. Tacikistan EA Tarix, arxeologiya və etnoqrafiya institutunun elmi işçisi Mubina Mahmudova "Orta əsrlərin yazılı mənbələrə görə taciklərin ənənəvi geyimlərinin rəng çalarları" adlı məqaləsində yazır [13, s.43]:

«Сефевиды и их воины в знак религиозно-военного отличия надевали красные шапкис гребнем и двенадцатью полосками, и потому, что их предводители были тюрками, называли себя кызылбашами – красношапочниками. Данный головной убор в государстве Сефевидов стал символом, указывавшим на конфессиональный признак, потому что носившие его почитали Али – четвертого халифа и первого из двенадцати имамов - прямых потомков пророка Мухаммеда, поэтому это была
«шапка с двенадцатью пурпурными полосками в честь двенадцати шиитских имамов».

Bu fərziyyəyə türk alimi Erhan Afyoncunun "Yavuzun Küpesi" monoqrafiyasında da rast gəlirik. Müridlərinin sayı getdikcə artdığını görən Şeyx

Heydər, qızılbaşlar təriqətinin simvolu olaraq onlara 12 dilimli qırmızı rəngli başlıqlar geyindirdi [14].

Zənnimizcə, qızılbaşlıq təriqətinin lideri olan Şah İsmayıl kimi bir şəxsiyyət də, bu geyimlərdən kənarda qala bilməzdi. Qızılbaşların baş geyimləri haqqında qeyd etdiyimiz fikirləri Şah İsmayıl Xətayinin öz qəzəlləri də təsdiq edir [15]:

Qırmızı taclu, boz atlu, ağır bir ləşkər nisbətlü
Yusif peyğəmbər sifətlü, ğazilər deyən şah
mənəm.
...
Xətayiyəm al atluyam, sözü şəkərdən
datluyam, Murtəza Əli zatluyam, ğazilər deyən
şah mənəm.

İstanbulun Topqapı Sarayı Muzeyində saxlanılan və Sultan Səlim adı ilə tanınan portretin identifikasiyası da öz həllini gözləyir. Sultan Səlimin dünya muzeylərində bir neçə portreti vardır. Biz internet resurslarda araşdırmalarımızla onlardan birinin Almaniyanın Reynhard Hauzen qəsrində tapdıq və Topqapı Muzeyindəki portretlə müqayisə etdik. Topqapı muzeyində olan portret bir sıra əlamətlərinə görə Şah İsmayıla daha çox bənzəyir. Portretdə bir neçə əlamət vardır ki, bu türk sultanlarına xas olmayan əlamətlərdir:

- Birincisi, portretdəki şəxsin qulağında tək sırğanın (mengüş) olmasıdır.
- İkincisi, şəxsiyyətin başında qırmızı tacın (turbanın) olmasıdır. Osmanlı sultanlarından heç biri bu cür tac qoymamışdır.
- Üçüncüsü, şəxsin boynunda mirvari həmayılın olmasıdır. Tarixçilərin qeyd etdiyi kimi, Sultan I Səlim "bər-bəzəyi, zinəti sevməyən hökmdar olmuşdur" və onun belə bir həmayıl taxması ağlasığmazdır.

Bu portretdəki səxsiyyət Sultan I Səlimə aid olan və Almaniyanın Reynhard Hauzen qəsrində saxlanan portretdəki simadan tamamilə fərqlənir.

Topqapı Sarayı muzeyində Sultan Səlim adı ilə nümayiş olunan bu portretin I Şah İsmayıla aid olduğunu iddia edirik və bu iddiamızı sübut etməyə çalışırıq. Bu portretin Sultan Səlimin vəfatından uzun müddət sonra naməlum macar rəssamı tərəfindən çəkildiyi iddia olunur. Portretdə gördüyümüz şəxs bığlı, başında qırmızı geyimli, qulağında sırğa ilə təsvir olunub. E. Afyoncu Sultan Səlimin həyatını əks edən "Səlimnamə" adlanan kitablarda sultanın sırğa taxtığına dair bir məlumatın olmadığını qeyd edir. Portretin Sultan Səlimə deyil, daha çox Şah İsmayıla bənzədiyi deyilir. Portretdə təsvir olunan qırmızı baş geyimi və 12 dilimli tac portretin Şah İsmayıla aid olduğu ehtimalını artırır. Portretdə gördüyümüz qırmızı tac (türban) XVII əsr rəssamı olan Muin Müsəvvirin miniatürlərində stilizə edilərək, təsvir olunmuş qızılbaş taclarının eyni olduğunu hesab etmək olar. Qeyd etmək lazımdır ki, portretdə gördüyümüz obraz məngüş ilə təsvir olunub. E.Afyoncu bunu qızılbaşlara xas xüsusiyyət olduğunu iddia edir. Səfəvilər dövrünə aid bir neçə miniatürdə də məngüş ilə obrazlara rast gəlmək mümkündür. Naməlum avropa rəssamının müəllifi olduğu bu portretin qrafik üslübda digər bir neçə variantı mövcuddur. Avropa mənbələrində bu portretə oxşarlığı ilə seçilən bir neçə qravür də mövcuddur. Ehtimal etmək olar ki, həmin nümunələr bu portretdən köçürülmüşdür.

İncəsənət tarixi üzrə tanınmış mütəxəssislər olan Dr.Filiz Çağman və Prof.,Dr., Zeren Tanındı [16] məlumat verirlər ki, Topqapı Muzeyində Sultan Səlimin portreti kimi nümayiş edilən şəkil 1929-cu ilə qədər Dolmabağça Sarayında olmuş, sonradan Topqapı Muzeyinin yaradılması ilə əlaqədar buraya köçürülmüşdür. Əsərin müəllifi məlum deyildir.

**Şah İsmayılın antropometrik əlamətləri haqqında məlumatlar.**

1981-ci ildə Edinburq Universitetində “Şah I İsmayılın həyatı və şəxsiyyəti – 1487- 1524” adlı tədqiqat işi aparılmışdır [17]. Muhamməd Kərim Yusif adlı tədqiqatçının fəlsəfə doktorluğu dissertasiyası olan bu iş kifayət qədər geniş və hərtərəfli tədqiqat işidir.Dissertasiya işinin III fəsli “Şah İmayılın xarici görünüşü, şəxsi vərdişləri və intellektual həyatı” adlanır. Bu fəsildə qeyd edilir ki, italiyalı səyyah Giovanni Maria Angiolello müəyyən müddət Şah İsmayılın sarayında yaşamışdır. Həmin səyyahın Şah İsmayılın xarici görkəmi haqqında xatirələri M.K.Yusifin dissertasiya işindədürüst məlumat kimi istifadə edilmişdir;

“Bu Səfəvi hökmdarı ədalətli, gözəl və xoşagələn, çox da hündür olmayan, dolu bədənli, enli kürəkli, kürən saçları olsa da, ancaq bığ saxlayan, sol əlini daha çox istifadə edən (solaxay) bir şəxsiyyət idi. Öz sərkərdələrindən daha cəsarətli idi”[17]:

"This Sophi is fair, handsome, and very pleasing; not very tall, but of a light and well-framed figure; rather stout than slight, with broad shoulders. His hair is reddish; he only wears moustachios, and uses his left hand instead of his right. He is as brave as a came cock, and stronger than any of his lords."

Başqa qeydlərdə Şah İsmayılın ağbəniz, kürən, üzü təraş olunmuş, yalnız uzun bığları olduğu haqqında fikirlərə də rast gəlinir.İlk dəfə olaraq biz Şah İsmayıl Xətaiyinin qəzəllərində onun xarici görünüşü haqqında məlumatları araşdırmış və müəyyən nəticə əldə etmişik. Maraqlıdır ki, Şah İsmayıl Xətayinin qəzəlləri içərisində üzünün tez-tez təraş olunmasını vəsf edən beytin olması da, onun xarici görünüşü ilə bağlı fikrimizi təsdiq edir [15]:

Gəl təraş et xəttini, şahi-cahan üç gündə
bir, Ta olasan afəti-dövri-zaman üç gündə
bir.

Onu da əlavə etmək lazımdır ki, Səvəfi miniatürlərinin böyük əksəriyyətində Şah İsmayıl məhz üzü təmiz təraş olunmuş, lakin uzun bığlar ilə təsvir olunubdur.

Şah İsmayılın sağlığında saray rəssamları tərəfindən çəkilmiş miniatürlərdə gördüyümüz türbanları nəzərə alsaq Uffiçi Qalereyasındakı portretdə türbanın natamam təsvir olunduğunu ehtimal etmək olar.

I Şah İsmayılın Uffiçi Qalereyasındakı portreti haqqında Azərbaycan Sovet Ensiklopediyasında məlumat verilmişdir[18]. Ensiklopediyada, bu portretin Covanni Bellini tərəfindən çəkildiyi qeyd olunmuşdur. Uffiçi qalereyasında və kitabxanasında tədqiqatlarımız zamanı bu portretin 1568-ci ildə, yəni I Şah İsmayılın ölümündən 44 il sonra Kristofano dell Altissimo tərəfindən çəkildiyi müəyyən olunmuşdur. Taxta üzərindəyağlı boya ilə çəkilmiş bu portretin hündürlüyü 60 sm, eniisə 45sm-dir.

Rəssam və portretin yaranma səbəbləri haqqında maraqlı mənbələrə rast gəldik. Müəyyən etdik ki, portret Paolo Giovio adlı bir şəxsin sifarişi ilə çəkilib, daha sonralar məşhur Mediçi ailəsinin sifarişi ilə üçü köçürülüb. İlkin tədqiqatlarımızla sübut olunmuşdur ki, Kristofanobu portreti Paolo Giovionun kolleksiyasındakı portretdən köçürmüşdür. Giovio zamanının intelektual fərdlərindən biri olmaqla yanaşı kifayət qədər nüfuzlu bir tacir, kolleksioner olmuşdur. Onun “Elegia” adlı kitabı zamanının məşhur şəxslərinin, o cümlədən, türk və səfəvi sərkərdələrinin portretləri və həmin portretlərə yazılmış annotasiyalar ilə zəngindir. Paolo Giovionun bu kitabı yazarkən Maria Angiolellonun qeydlərindən istifadə etdiyi və iki Səfəvi hökmdarının portretini bu qeydlər əsasında yaratdığını ehtimal etmək olar [19]. Paolo Giovio və Kristofano dell Altissimo haqqında gələcək məqalələrimizdə ətraflı söhbət açmağa çalışacağıq. Qeyd etmək lazımdır ki, Paolo Giovionun məşhur kolleksiyasındakı portretlərin

köçürülmüş

nüsxələri hal-hazırda Uffiçi Qallereyasında saxlanılır. Bu baxımdan, orijinalın tapılması, identifikasiyası, kim tərəfindən və hansı şəraitdə çəkildiyi Azərbaycan sənətşünaslığının aktual problemlərindən biri olaraq qalır.

Bu tədqiqatlar Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir: Qrant № EİF/MQM/Elm-Təhsil-1-2016-1(26)-71/02/5.

Əlyazmanı diqqətlə oxuduğuna və dəyərli məsləhətlərinə görə, AMEA-nın müxbir üzvü, Ə.Salamzadəyə və Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor M.Qasımlıya dərin təşəkkürümüzü bildirirk.

## Ədəbiyyat:

1. Elm haqqında Azərbaycan Respublikasının Qanunu. http://science.gov.az/uploads/PDF/Elm_haqqinda_Azerbaycan_Respublikasinin_Qanunu.pdf
2. Mehdiyev R.Ə. Tarixi idrakın elmiliyi problemlərinə dair. Bakı: Şərq-Qərb nəşriyyatı, 2013, 256s.
3. Aliyev E.V. About Portraits of Shah Ismail Khatai. / Proceedings of the Conference "Actual Problems of Science and Culture in Azerbaijan", (June 3-5, 2003, Baku, Azerbaijan), Baku, "Western University Publ.," 2003, volume 3, p.69-71.
4. Əliyev E.V. Şah İsmayılın Florensiyadakı portreti haqqında. // AMEA Şərqşünaslıq İnstitutunun "Elmi Araşdırmalar" jurnalı, 2004, VI cild, № 1-2, s.177-180.
5. Şah İsmayılın Londondakı portreti haqqında. // AMEA Şərqşünaslıq İnstitutunun "ElmiAraşdırmalar" jurnalı, 2004, VII cild, № 3-4, s.219-222.
6. Əliyev E.V. "İnternet texnologiyalar və incəsənət" monoqrafiya. Bakı, 2018, 171s. İnternet-resurslar və sənətşünaslıq üzrə tədqiqatlarda yeni mərhələ. s.137-141.
7. https://ru.wikipedia.org/wiki/Бертильон_Альфонс
8. Рейсс Р.-А. Словесный портрет. Опознание и отождествление личности по методу Альфонса Бертильона. Первое издание. (Обработанный и дополненный перевод К.Прохорова). Москва, 1911, 154с.
9. Savory Roger. Ahmet T.Karamustafa. "ESMĀʿĪL I ṢAFAWĪ". Encyclopaedia Iranica, Vol. VIII, Fasc. 6. pp.628-636. http://www.iranicaonline.org/articles/esmail-i-safawi
10. Nağıyev S.F. Qızılbaşlıq haqqında. (elmi red. O.Əfəndiyev), Bakı: "Əbilov, Zeynalov və oğulları" nəşriyyatı, 1997, 32s.
11. Мукминова Р.Г. Костюм народов Средней Азии по письменным источникам XVI в. / Костюм народов Средней Азии. М., 1979, 247 с. с.70-77.
12. Раджабова Д.К. Историческая эволюция народного костюма таджиков (трансформация верхней одежды): диссертация ... кандидата исторических наук, 2016, 169с.
13. Махмудова М.М. Цветовая гамма средневековой традиционной одежды таджиков по материалам письменных источников», Вестник ТГУПБП, 2017, № 2, с.36-50. (İSSN 2413-2004).
14. Afyonçu E. Yavuzun küpesi. İstanbul,"Yeditepe Yayın Evi", 2017, s.15.
15. Şah İsmayıl Xətayi. Əsərləri. Bakı: "Şərq-Qərb" nəşriyyatı, 2005, s.82-83; s.150-151.

16. Filiz Çağman, Zeren Tanındı.Topkapı Sarayı Müzesi, Portreler.Istanbul: Yapı Kredi Publications 1984.
17. Karim Youssef İamali Mohammed. The Life and Personality of Shah İsmail I (1487-1524). Thesis submitted for the Degree of Doctor of Philosophy, University of Edinburg, May, 1981, 147p.
18. Azərbaycan Sovet Ensiklopediyası, "*Bellinilər*" məqaləsi, Bakı. ASE nəşriyyatı, 1977, II cild, s.83.
19. http://www.iranicaonline.org/articles/angiolello-giovanni-maria-1451-ca-1525

**Эльшад Алиев, Мехрибан Новрузова**
**Идентификация особенностей портрета Шаха Исмаила I**

**Резюме**

Несколько портретов Шах Исмаила I - основателя Сефевидского государства дошло до наших дней. Однако, настоящие авторы этих портретов, когда и кем, при каких обстоятельства нарисованы остается важной проблемой искуствоведения. Основная цель проведенных исследований является искуствоведческая идентификация существующих портретов Шах Исмаила I. Исследования имеют мультидисциплинарный характер. Впервые выдвинут особый подход идентификации средневековых портретов основывющееся двум различным критериям: по внешним (одежда, украшения, шапка и т.п.) и антропометрическим факторам. Приведены примеры сравнительного изучения портретов Оттоманских иСефевидских властителей.

**Ключевые слова:** Государство Сефевидов, конфессия красноголовых, Шах Исмаил I, портрет, сравнительный анализ.

**E.V.Aliyev, Mekhriban Novruzova**
**Identification of portrait features of Shakh Ismail I**

**Summary**

Several portraits of Shakh Ismail I, the founder of the Safavid state, have survived. However, the true authors of these portraits, when and by whom, under what circumstances they are painted, remain an important problem of the Art study. The main goal of the research is the identification of the existing portraits of Shakh Ismail I, in an academic manner. The studies are multidisciplinary. For the first time, a special approach has been put forward for identifying medieval portraits based on two different criteria: by external (clothing, jewelry, hat, etc.) and anthropometric factors. Examples of a comparative study of portraits of Ottoman and Safavid rulers are given.

**Keywords:** Safavid state, Shah Ismail I, portrait, comparative analysis.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 10.10.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 17.10.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 21.10.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: professor Cəmilə Həsənzadə**
**ADMİU-nun Elmi Şurasının 22 dekabr 2018-ci il, 04 saylı qərarı ilə çap olunur**